# Xocalı soyqırımı: Bəşəriyyətə qarşı yönəlmiş cinayət

Xocalı soyqırımı Azərbaycanın müasir tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur.

Xalqımız iki yüz ilə yaxındır ki, güclü havadarlarına arxalanan ermənilərin etnik təmizləmə, soyqırım siyasətinə məruz qalır. Ermənilər hər fürsətdə Azərbaycanlıları tarixi torpaqlarından qovur, qaçqına, məcburi köçkünə çevirir və bütün bunlar ermənilər tərəfindən törədilən kütləvi qırğınlarla müşayət olunur. Soydaşlarımızın öz tarixi, ata-baba torpaqlarından qovulması hətta sovet dövründə də davam etmişdir. Sovet hakimiyyətinin qərarı ilə 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Kür-Araz ovalığında məskunlaşdırılmışdır. 1988-ci ildə isə süni şəkildə "Ermənistan" adlandırılan öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən vəhşicəsinə qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ötən əsrin 80-ci illərində Dağlıq Qarabağ ətrafında başlayan hadisələrin nəticəsində on minlərə günahsız insan həlak olmuş, yüz minlərlə soydaşlarımız öz tarixi torpaqlarından didərgin düşmüşdür. Dağlıq Qarabağ hadisələrinin fonunda baş vermiş Xocalı soyqırımı isə Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biridir.

Ermənistanın hərbi birləşmələri rus ordusunun 366-cı alayının zirehli texnikası və şəxsi heyəti ilə birlikdə 1992-ci il fevralın 26-da




Qarabağın dağlıq hissəsində yalnız azərbaycanlıların yaşadığı strateji əhəmiyyətə malik Xocalı şəhərini yer üzündən silmək və buradakı qədim tarix-mədəniyyət abidələrini məhv etmək üçün dünyada analoqu olmayan qətliam törətmişlər.

Soyqırımı zamanı 7 min əhalisi olan Xocalı şəhərində ermənilər tərəfindən 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub. 106 qadın, 63 azyaşlı uşaq, 70 nəfər qoca xüsusi amansızlıqla qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 nəfər uşaq isə valideyinlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil.

Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Ermənilər sağ qalmış insanlar üzərində görünməmiş təhqiredici hərəkətlər etmiş, onlara ağır işgəncələr vermişlər. Qana susamış ermənilər əsirlərin dərisini soymuş, başlarını, qulaqlarını, burunlarını və digər orqanlarını kəsmiş, gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışlar.

Təkcə Azərbaycan xalqına qarşı deyil, bütün sivil dünyaya, bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətlə bağlı Xocalı qaçqınları BMT-yə, Avropa İttifaqına, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, bütün dünya xalqlarına müraciətlər ünvanlamış, bu amansız qətliama laqeyd qalmamalarını, təcavüzkarlığa qarşı qəbul olunmuş beynəlxalq konvensiyalara, ümumbəşəri qanunlara etinasızlığın yolverilməz olduğunu bildirmişlər. Çox təəsüf ki, bu günə kimi nüfuzlu beynəlxalq təşkilatlar soyqırımı törədən Ermənistana qarşı lazımi təsirli tədbirlər görməmişlər.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi siyasi-hüquqi qiymət verməlidirlər.

**Anar RÜSTƏMLİ,**
**rayon mərkəzləşdirilmiş kitabxanalar sisteminin direktoru.**

# Xocalı soyqırımı unudulmur

Hər il olduğu kimi bu ildə rayonumuzda xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir.

Rayon İcra hakimiyyətinin tədbirlər planına əsasən idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, faciənin şahidləri ilə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş olunacaq.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 1700-də rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Soyqırımı günü ilə əlaqədar rayon ərazisində Azərbaycanın dövlət bayraqları endiriləcək.

**Vüsal SƏMƏDOV,**
**RİH-nin məsləhətçisi.**

# Nə vaxtacan?

Elə hadisələr var ki, üstündən neçə illər keçsə də dünən olmuş kimi insanın içini göynədir, ürəyini ağrıtdıqca ağrıdır. Belə hadisələrdən biri də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bədnam erməni quldurları tərəfindən Xocalı sakinlərinə qarşı törədilmiş qanlı faciədir.

Əli yalın, dinc insanlara qarşı misli görünməmiş vəhşilik, qanlı cinayət törədilsə də, haqdan, ədalətdən dəm vuran bəzi dövlətlər bu hadisələrə susmaqla cavab verdilər.

İnanırıq ki, Xocalı faciəsini törədənlər bir gün öz layiqli cəzalarına çatacaqlar. Azərbaycan sülhsevər dövlətdir. Onun yeritdiyi siyasət də bu pirinsiplər əsasında qurulub. Qoy belə bir dövlətə, onun xalqına qarşı məkrli niyyəti olanlar öz əməlləri barəsində düşünsünlər. Unutmasınlar ki, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var.

***Xocalının külünü göyə sovuran küslər,***
***Yarəb, görəsən indi keçirir hansı hisslər?***
***İnsanlığa sığmayan bu cinayət, xəyanət***
***Hansı insan oğlunun diqqətini etdi fəth?***
***Nədən dünya xalqları görməz oldu bu anı?***
***Qeyrətinə sığınıb kim yuyacaq bu qanı?***
***Nə vaxtacan haqsızlar haqqa qənim olacaq?***
***Anaların gözləri acı yaşla dolacaq?***
***Nə vaxtacan yurdumda şəhid qanı axacaq?***
***Gül-çiçək əvəzinə qan topuğa çıxacaq?***
***Nə vaxtacan ay Cəlil, boğub içində səsi,***
***Yandıracaq qəlbini Xocalı faciəsi?***

**Cəlil KOMRADLI.**

# Xocalı soyqırımı qurbanları anılıb

Rayon ağsaqqalar şurası "Xocalı soyqırımı: XX əsrin faciəsi" mövzusunda tədbir keçirib. Tədbirdə rayon ağsaqqallarının, ziyalıların və müharibə veteranlarının bir qrupu iştirak edib.

Toplantıda Xocalı soyqırımında həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra mərasimi giriş sözü ilə rayon ağsaqqalar şurasının sədri Nazim Mustafayev açaraq ermənilərin Xocalıda törətdiyi cinayətlərdən, beynəlxalq təşkilatların bu qanlı soyqırım hadisəsinə lazımi hüquqi-siyasi qiymət verməməsindən söz açıb.

Natiq bildirib ki, bəzi dövlətlər Xocali faciəsinə ikili standartla yanaşır, soyqırım cəlladları ilə bir masa arxasında əyləşməkdən çəkinmirlər

Mərasimdə Vaqif Əzimov, Süleyman Mehdiyev, Niyazi Babayev və digərləri çıxış edərək ermənilərin rus ordusunun 366-cı alayının zirehli texnikası və şəxsi heyəti ilə birlikdə 1992-ci il fevralın 26-da 7 min əhalisi olan Xocalı şəhərində tarixdə görünməmiş qətliam törətdiklərini qeyd ediblər.

Cıxış edənlər Xocalı soyqırımı qurbanlarının günahsız qanının yerdə qalmayacağını, erməni cəlladlarından öc alınacaq günün cox uzaqda olmadığını vurğulayıblar.

**Səfa ASLANOV,**
**«Qəbələ»**

# Xatirə saatı keçirilmişdir

Rayon tarix-diyarşünaslıq muzeyində milli qəhrəman Mübariz İbrahimovun doğum günü ilə əlaqədar "Şəhidlər qürurumuzdur" mövzusunda xatirə saatı təşkil edilmişdir.

Tədbirdə Azərbaycanın bütövlüyü və azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbir iştirakçıları əvvəlcə "Şəhidlər ölməz vətən bölünməz" daimi güşəsinə baxmışlar. Sonra Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimovun şücaəti və qəhrəmanlığı haqqında geniş söhbət aparılmış, tariximizə yeni qəhrəmanlıq səhifəsi yazan Vətən oğlunun xalqın qəlbində əbədiyaşarlıq qazanmasından söhbət açılmışdır.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyi.**

***Qəzetimizin ötən sayında məlumat verdiyimiz kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin «2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair» 10 yanvar 2018-ci il tarixli iclasında bu ili ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan etmiş və həmin gün bununla əlaqədar sərəncam imzalamışdır.***

# Tariximizə böyük hörmət və ehtiramın parlaq nümunəsi

Ölkə başçısı qeyd etmişdir ki, «Biz bu il müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır».

Dövlət rəhbəri bildirmişdir ki, «Cümhuriyyət ili»ndə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti düzgün, obyektiv təhlil olunmalıdır».

Tarixdən bizə çatan təkzibolunmaz sənədlərdən göründüyü kimi Azərbaycan Xalq Cumhuriyyəti mövcud olduğu 2 ilə yaxın dövrdə çox iş görmüşdür. İqtisadiyyat, elm, təhsil, dünyanın qabaqcıl təhsil müəssisələrdə bacarıqlı kadrların hazırlanması, ərazi bütövlüyünün təmin olunması sahəsində Azərbaycan Xalq Cumhuriyyətinin həyata kecirməyə başladığı tədbirlər xalqımız tərəfindən, bugünkü Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilir.

Bəzi siyasi təhlilçilər 1918-ci ildə yeni yaranmış Azərbaycan Xalq Cumhuriyyətinin liderlərinin 29 may 1918-ci il tarixdə qədim Azərbaycan diyarı İrəvanın və ətraf ərazilərin (cəmi 9 min kvadrat kilometrlik ərazi) ermənilərə güzəştə getməsini böyük səhv adlandırırlar. Bu məsələyə qiymət verərkən həmin dövrdəki ictimaisiyasi və hərbi vəziyyəti, bir sözlə tarixi şəraiti nəzərə almaq lazımdır. Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı ABŞ, İngiltərə başda olmaqla qərb dövlətlərinin təzyiqi altında müəyyən şərtlərlə ermənilərə güzəştə getmişdi.

Azərbaycan Xalq Cumhuriyyətinin ömrünün az olması da o dövrdəki xarici və daxili faktlarla əlaqəli qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin bəhs etdiyimiz yığıncağındakı yekun nitqində qeyd etdiyimiz məsələlərə münasibət bildirərək demişdir: «Amma bütün bu çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmaz yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq Azərbaycan Xalq Cumhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir».

Azərbaycan Xalq Cumhuriyyəti 1920-ci ilin aprelində suquta ugrasa da onun amalları, xalqın qəlbində əbədilik kök saldı, xalqımız bütün dövrlərdə azadlıq, müstəqillik ideallarını qoruyub saxladı və zaman-zaman bu yolda çoxlu qurbanlar verdi.

Nəhayət 1991-ci ildə, düz 71 ildən sonra xalqımız yenidən müstəqillik arzusuna qovuşdu. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə ölkəmizdə ikinci dəfə (bu dəfə müstəqil Azərbaycanda) hakimiyyətə gəldikdən sonra Azərbaycan Respublikasının Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğunu bildirdi. Dahi rəhbər müstəqqillik tariximizin əslində 1918-ci ildən başlandığını bəyan etdi. Azərbaycanın bütün əsas hakimiyyət strukturlarının (ordu, polis, milli təhlükəsizlik və s) yaranma tarixlərinin Azərbaycan Xalq Cumhuriyyəti tarixi ilə qeyd edilməsi barədə sərəncamlar verdi.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2018-ci ili ölkəmizdə «Azərbaycan Xalq Cumhuriyyəti ili» elan etmək barədə qərarı da ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cumhuriyyətinə, onun ənənələrinə sadiqliyinin və ehtiramının parlaq nümunəsidir.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**